# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI» MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA

Toshkent - 2025

O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI

# «TURKIY XALQLARNING MA’NAVIY INTEGRATSIYASI: TILI, ADABIYOTI, MADANIYATI»

MAVZUSIDAGI II XALQARO ILMIY-NAZARIY KONFERENSIYA MATERIALLARI

TOSHKENT - 2025

Mazkur ilmiy maqolalar to‘plamida «Turkiy xalqlarning ma’naviy integratsiyasi: tili, adabiyoti, madaniyati» II Xalqaro ilmiy-amaliy konferensiyasi materiallari jamlangan. Maqolalarda turkiy tillarning rivoji va o‘zaro o‘xshashliklarini, umumiy adabiy merosimizni ilmiy asosda chuqur o‘rganish; madaniy aloqalarni zamonaviy texnologiyalar orqali kengaytirish; tarjima va adabiy almashinuv orqali xalqaro miqyosda muloqotni kuchaytirish; raqamli platformalar orqali integratsiyani amalga oshirishga oid fikrlar yoritib berilgan. To‘plamdan dunyo bo‘yicha taniqli turkiyshunos olimlar, metodistlar, o‘qituvchilar hamda ToshDO‘TAU iqtidorli talabalarining maqolalari ham o‘rin olgan.

To‘plam til va adabiyot ta‘limi bilan shug‘ullanuvchi professor-o‘qituvchilar, shu sohaning tadqiqotchilari, magistrant va talabalarga mo‘ljallangan.

**Taqrizchilar:**

**G.Asilova** – *pedagogika fanlari doktori (DSc), professor.*

**G.Norimova** – *filologiya fanlari nomzodi, dotsent.*

**Tahrir hay’ati:**

S.Muhamedova, S.Qambarova, O.Turaqulova,
Y.Shirinova, M.Yo‘ldosheva.

*Mazkur to‘plam matni Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti Kengashining 2025-yil 2-iyundagi 10-sonli majlisida muhokama qilinib, nashrga tavsiya qilingan.*

*Izoh: Maqolalarning ilmiy saviyasi uchun mualliflar o‘zlari mas’uldirlar.*

2.https://www.anl.az/down/meqale/525/2018/sentyabr/604260.htm
3.https://respublika-news.az/news/mocuzeler-seheri-semerqend
4.https://az.m.wikipedia.org/wiki/%C6%8Fmiri-Gur
5.https://az.m.wikipedia.org/wiki/Bibixan%C4%B1m_m%C9%99scidi
6.https://az.m.wikipedia.org/wiki/Registan_meydan%C4%B1_(S%C9%99m%C9%99rq%C9%99nd)
7.https://xalqqazeti.az/az/medeniyyet/132204-qedim-semerqendin-birlik-ziyaretgahi-xoca
8.https://az.m.wikipedia.org/wiki/Uluqb%C9%99y_r%C9%99s%C9%99dxanas%C4%B1
9.https://edebiyyatqazeti.az/news/sience/9128-alp-er-tonqa-turanin-qurucusu?utm_source=
10.https://az.m.wikipedia.org/wiki/%C5%9Eaxi_Zinda
11.https://az.m.wikipedia.org/wiki/S%C9%99m%C9%99rq%C9%99nd

# AZƏRBAYCAN MUĞAMI

**Fatimə Salmanova**
*Filologiya fakültəsinin tələbəsi*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Ordic: ordic.org/0009-0000-0906-464X*
*fiyamist6717@gmail.com*
*Elmi rəhbər: f.e.d.prof. Mirvari İsmayılova*

*Muğam bir xəzinədir, açarıdır duyğular,*
*Muğamda sevinc də var, muğamda kədər də var.*
*Muğam mənim xalqımın misilsiz kamalıdır,*
*Tarixidir, eşqidir, arzusu, amalıdır.*
***Bəxtiyar Vahabzadə***

**Xülasə**:Muğam sadəcə hansısa bəstəkar tərəfindən bəstələnmiş sadə bir musiqi və ya avaz deyil. Muğam insan ruhunu oxşayan, onun psixologiyasına müxtəlif istiqamətli təsirlər göstərə bilən unikal bir vasitədir.O, təkcə bir musiqi janrı deyil, həm də qədim tariximizi, ruhumuzu, duyğularımızı əks etdirən zəngin bir bədii irs nümunəsidir. Dünyada mövcud olan musiqi janrlarından fərqli olaraq, muğam bir çox xalqların milli-mədəni irsinin formalaşmasında və bugünkü dövrə qədər gəlib çatmasında mühüm rol oynayıb. Bu məqalədə muğam haqqında ümumi məlumat veriləcəkdir. Muğam nədir, necə yaranıb və hansı xüsusiyyətlərə malikdir — bütün bunlara aydınlıq gətiriləcək. Eyni zamanda muğamın bədii irs kimi xalq yaddaşındakı yeri və bu gün də yaşadılması mövzusuna toxunulacaqdır.

**Açar sözlər:** Azərbaycan mədəniyyəti, muğam,musiqi janrı, bədii irs, mədəniyyətin qorunması.

**Annotatsiya**: Mug'om shunchaki bastakor tomonidan yaratilgan oddiy musiqa yoki tovush emas. Mug'om – inson qalbiga chorlovchi, uning psixologiyasiga turli ta'sir ko'rsatadigan noyob vositadir. Bu nafaqat musiqiy janr, balki qadimiy tariximizni, qalbimizni, his-tuyg'ularimizni o'zida aks ettiruvchi boy badiiy meros namunasidir. Mug'om jahondagi boshqa musiqa janrlaridan farqli o'laroq, ko'plab xalqlar milliy-madaniy merosining shakllanishi va bugungi kungacha saqlanib qolishida muhim rol o'ynadi. Ushbu maqolada

mug'om haqida umumiy ma'lumot beriladi. Mug'om nima, u qanday paydo bo'lgan va qanday xususiyatlarga ega - bularning barchasiga oydinlik kiritiladi. Shu bilan birga, mug‘omning badiiy meros sifatida xalq xotirasida tutgan o‘rni va bugungi kungacha saqlanib qolishi haqida so‘z boradi.

**Kalit so'zlar**: Ozarbayjon madaniyati, mug'om, musiqiy janr, badiiy meros, madaniyatni saqlash.

**Abstract:** Mugham is not just a simple piece of music or sound composed by a composer. Mugham is a unique tool that appeals to the human soul and can have various effects on its psychology. It is not only a musical genre, but also an example of a rich artistic heritage that reflects our ancient history, soul, and emotions. Unlike other musical genres in the world, mugham has played an important role in the formation of the national and cultural heritage of many peoples and its preservation to the present day. This article will provide general information about mugham. What is mugham, how did it originate and what features does it have - all this will be clarified. At the same time, the place of mugham in the people's memory as an artistic heritage and its preservation today will be touched upon.

**Keywords**: Azerbaijani culture, mugham, musical genre, artistic heritage, preservation of culture.

Azərbaycan xalqı qədim və zəngin tarixə sahib olmaqla yanaşı, dərin köklərə malik mədəniyyət yaratmışdır. Bu mədəniyyətin ayrılmaz hissəsi olan musiqi sənəti də əsrlər boyu xalqımızın düşüncə tərzini, dünyagörüşünü və emosional dünyasını əks etdirmişdir. Bir çox sahələrdə olduğu kimi, musiqi sahəsində də xalqımız bəşəriyyətə dəyərli irs bəxş etmişdir. Azərbaycanı və onun milli-mədəni kimliyini dünya miqyasında tanıdan ən mühüm sənət nümunələrindən biri muğamlarımızdır.

Muğam Azərbaycan xalq musiqisinin əsas sütunlarından biridir. Şərq musiqi mədəniyyətinin zəngin qatlarını özündə daşıyan muğam təkcə musiqi alətləri ilə icra edilmir, həmçinin ifaçının səs tembrinə, emosional yanaşmasına və ruh halına da xüsusi həssaslıqla yanaşmağı tələb edir. Bu unikal musiqi janrı təkcə sənət sahəsi kimi deyil, həm də xalqın mədəni kimliyinin qorunması və beynəlxalq səviyyədə təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

Muğam yalnız bir musiqi forması deyil, eyni zamanda insanın daxili aləminə işıq salan, onu düşüncələrə qərq edən, emosional yüksəlişlərə aparan incə və təsirli bir sənət nümunəsidir. Bu səbəbdən də muğam sənəti azərbaycanlılar üçün milli kimliyin ifadəsi, özünüdərk prosesinin ayrılmaz hissəsi kimi dəyərləndirilir. Bu musiqi ənənəsi yalnız azərbaycanlılar arasında deyil, ölkəmizdə yaşayan digər xalqlar – talışlar, ləzgilər, dağ yəhudiləri, gürcülər, avarlar və başqaları arasında da geniş yayılmış və sevilmişdir.

Muğamın ecazkar səsləri insan ruhuna toxunur, dinləyicini mənəvi dünyasına aparır. O, adi bir musiqidən daha artıqdır – sanki ilahi bir çağırış, qəlbə nüfuz edən bir səsdir. Ruh halımızdan asılı olmayaraq muğamda hər bir insan özünü tapır – istər hüznlü və kədərli anlarda, istərsə də sevinc və məhəbbət dolu çağlarda. Muğam həyatın bütün mərhələlərində insanı müşayiət edən, ona mənəvi dayaq olan sənət növüdür. Əsrlər boyunca xalqla birgə yol keçən muğam, onu saflaşdıraraq, yüksəldərək zamanları və nəsilləri birləşdirən mədəni körpü rolunu oynamışdır.

Əsas hissə

Muğam, Şərq ölkələrinin klassik xalq musiqi yaradıcılığının əsas janrlarından biri kimi tanınır. "Muğam" sözü ərəb, fars və türk dillərində işlənən "məqam" sözündən yaranmışdır. Bu termin simli musiqi alətlərindəki pərdəyə – yəni not yerinə istinad edir. Hər bir muğamın əsas (mayə) notu məhz həmin pərdədə yerləşdiyi üçün bu adla tanınır.

XIV əsrə qədər Yaxın Şərq xalqları arasında ortaq musiqi janrları mövcud olmuşdur. Lakin sonrakı dövrlərdə baş verən ictimai-siyasi dəyişikliklər bu vahid janrın fərqli xalqların musiqi ənənələrinə uyğun şəkildə parçalanmasına səbəb olmuşdur. Azərbaycan muğamı da bu prosesin nəticəsi olaraq formalaşmış və Şərq musiqi mədəniyyətinin dərin qatlarına bağlı qalmışdır.

Muğam dəstgahı çoxhissəli vokal-instrumental musiqi əsəridir. Bu dəstgahlar instrumental giriş olan dəraməddən (bərdaşdan), improvizasiya xarakterli şöbələrdən, təsnif və rənglərdən ibarətdir. Muğamın ahəngi Quran tilavəti edən mouzəçilərin səs tembrindən, melodiyası isə fars saraylarının incə musiqi ənənələrindəntəsirlənmişdir. İfa tərzi isə Azərbaycan aşıq sənətindən bəhrələnmiş, xalq ruhunu özündə cəmləmişdir.

Muğamların konkret müəllifi olmur – bu sənət xalqın yaratdığı, yüzillər ərzində formalaşmış və inkişaf etmiş bir mirasdır. Muğamlar adətən tarzən, kamançaçı və xanəndədən ibarət trio tərəfindən ifa olunur. Klassik Şərq muğamı ümumilikdə 12 əsas muğam və 6 avazatdan ibarət olmuşdur. Əsas muğamlar sırasında Üşşaq, Nəva, Rast, Hicaz, Busəlik və s. Göstərilir. *Azərbaycan muğam sənətində isə 7 əsas və 3 köməkçi muğam mövcuddur.* Əsas muğamlar – "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Humayun"; köməkçi muğamlar isə "Şahnaz", "Sarənc" və "İkinci növ Çahargah"dır.[3]

Azərbaycan musiqisində mövcud muğam formaları içərisində bədii məzmun və miqyas baxımından ən əhatəlisi dəstgahdır. Tarixi mənbələrə əsasən, 1922-ci ildə Bakıda fəaliyyətə başlayan ilk Avropa tipli musiqi məktəbinin proqramına muğam tədrisi də daxil edilmişdi. Bu mühüm yenilik Azərbaycan dəstgahlarının strukturunda islahatlara səbəb olmuş və müxtəlif məhəlli muğam məktəblərinin bir-birinə yaxınlaşmasını təmin etmişdir.

*Müasir dövrdə muğam üç əsas kateqoriyaya bölünür: 1) Əsas muğamlar; 2) Kiçik həcimli muğamlar; 3) Zərbi muğamlar.* Bunlara əlavə olaraq, "Rast" və "Segah" ailəsinə daxil olan müxtəlif muğam variantları da mövcuddur.

Görkəmli bəstəkar Üzeyir Hacıbəyov muğam dəstgahlarının psixoloji-emosional təsiri barədə qeyd edir ki, "Rast" dinləyicidə mərdlik və gümrahlıq, "Şur" lirik əhval-ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" kədər, "Çahargah" ehtiras və həyəcan, "Bayatı-Şiraz" qəm, "Humayun" isə daha dərin hüzn hissi yaradır. [2] Xanəndə Şuşinski isə muğamı "yaralı ürəklərin məlhəmi" adlandırır. Muğam yaradıcı təfəkkür və improvizasiya üçün geniş imkanlar təqdim edir. Xanəndə öz zövqünə və bacarığına əsaslanaraq bir muğamdan digərinə keçə bilər və beləliklə, fərdi ifaçılıq üslubu yaradır. Azərbaycan bəstəkarları arasında muğamdan bəhrələnərək əsərlər yaradan sənətkarlar çoxdur. Fikrət Əmirovun "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları bu janrın əsasını qoymuşdur.

Niyazinin "Rast" simfonik muğamı isə ən gözəl nümunələrdən biridir. Bu irsi Xan Şuşinski, Zülfü Adıgözəlov, Yaqub Məmmədov, Rübabə Muradova, Arif Babayev kimi sənətkarlar yaşatmış, bu gün isə Alim Qasımov,Mənsum İbrahimov, Zabit Nəbizadə, Aygün Bayramova və digərləri tərəfindən layiqincə davam etdirilir. Müntəzəm təşkil edilən muğam müsabiqələri yeni istedadların üzə çıxmasına geniş şərait yaradır.

Azərbaycan muğam sənəti, yalnız ölkəmizin mədəniyyətinin deyil, həm də dünya musiqi irsinin zənginliklərindən biridir. *7 noyabr 2003-cü il tarixində UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri elan edilən muğam, öz dərin və zəngin tarixi ilə bəşəriyyətin ortaq mədəniyyətində mühüm bir yer tutur.* [4] Bu, həmçinin Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanınması və qorunması istiqamətində atılmış böyük bir addım olmuşdur. 2008-ci ildə muğamın UNESCO-nun Reprezentativ Siyahısına daxil edilməsi, onun dünya musiqi xəzinəsindəki mövqeyini gücləndirmiş və daha geniş miqyasda təbliğ olunmasına şərait yaratmışdır.Bakıdakı Beynəlxalq Muğam Mərkəzi, muğamın inkişafı və tədrisi üçün əvəzsiz bir platformadır. Bu mərkəz, muğam sənətinin gələcək nəsillərə ötürülməsi və geniş kütlələrə tanıdılması məqsədini daşıyır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə regionlarda muğam mərkəzlərinin inşası, muğamın daha da inkişaf etməsi və geniş yayılması üçün əhəmiyyətli bir addım olmuşdur. Bu mərkəzlər, Azərbaycanın müxtəlif guşələrində yaşayan gənc xanəndələrə təlim və dəstək verərək, onların istedadlarını inkişaf etdirməyə kömək edir.Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu, Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi üçün müxtəlif layihələr həyata keçirmişdir. 2005-ci ildən etibarən təşkil olunan "Azərbaycan muğamları" layihəsi, gənc ifaçılara dəstək vermək, muğamı daha geniş auditoriyaya tanıtmaq və onun beynəlxalq səviyyədə tanınmasına kömək etmək məqsədini güdür. Bu təşəbbüslər sayəsində

Azərbaycan muğamı yalnız ənənəvi ifaçılarla deyil, həm də müasir gənc ifaçılarla öz həyatını davam etdirir. Gənclərin yaradıcı yanaşmaları, muğamın çağdaş dövrün tələblərinə uyğunlaşa biləcəyini və bu sənətin zamana uyğun yeniliklərə açıq olduğunu göstərir.UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş muğam, yalnız Azərbaycan üçün deyil, dünya musiqisi üçün dəyərli bir xəzinədir. Bu, həm də Azərbaycan xalqının mədəniyyətinə, tarixinə və mənəvi dəyərlərinə olan hörmətin bir təzahürüdür. *Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, bu sənətə göstərilən diqqət və qayğını bir daha təsdiq edir.* Festivalda iştirak edən muğamsevərlər və elmi tədqiqatçılar, muğamın dünya səhnəsindəki mövqeyini gücləndirir və onun gələcək nəsillərə ötürülməsi üçün zəmin yaradırlar.Muğam sənətinin təbliği ilə bağlı keçirilən beynəlxalq festivallar və elmi simpoziumlar, Azərbaycan musiqisinin yalnız ölkəmizdə deyil, dünyanın hər bir guşəsində tanınmasını təmin edir. Bu tədbirlər, muğamın təkcə bir musiqi janrı deyil, həm də insan ruhunun dərindən təsirlənən və xalqımızın hisslərini, tarixini və mədəniyyətini əks etdirən bir sənət forması olduğunu bir daha göstərir.

Muğamın təbliği, həm də milli mədəniyyətimizin gələcəyinin qorunmasına xidmət edir. Bu sənət, Azərbaycanın zəngin musiqi irsinin bir hissəsi olaraq, ölkəmizin beynəlxalq aləmdəki mədəni statusunu yüksəldir. Hər il 26 avqustda qeyd olunan muğam bayramı, Azərbaycan xalqının mədəni kimliyinin və muğam sənətinin davamlılığını təmin edən bir gün olaraq, muğamsevərlərin və sənətçilərin bu sahəyə verdiyi töhfələri dəyərləndirir. Bu bayram, yalnız muğamın təbliği deyil, həm də xalqımızın mənəvi zənginliyinin və mədəniyyətinin təntənəsidir.Azərbaycan muğamı, zamanın tələblərinə uyğunlaşa bilən bir sənət forması olaraq, yalnız ölkəmizdə deyil, dünya səhnəsində də mövqeyini möhkəmləndirməkdədir. Onun qorunması və təbliği, həm milli, həm də qlobal mədəni irsimizin zənginləşməsinə və gələcək nəsillərə ötürülməsinə böyük töhfə verir. Bu səbəbdən, muğam sənətinin gələcəkdə də davamlı və dinamik bir sənət forması olaraq inkişaf etməsi, dünya mədəniyyəti üçün böyük əhəmiyyət daşıyır.

Muğam Azərbaycan mədəniyyətinin ayrılmaz və qiymətli bir hissəsidir. Onun tarixi, ənənələri və ifa üsulu, yalnız musiqi sahəsində deyil, xalqın bütün mənəvi həyatını əks etdirən dərin bir sərvətdir. Bu sənət forması əsrlər boyu xalqın emosional dünyasını, yaşadığı dövrün kədərini və sevincini bir araya gətirərək onu mədəniyyətin bir parçası halına gətirmişdir. Təəssüf ki, uzun müddət muğamın əhəmiyyəti lazımi şəkildə qiymətləndirilməmiş, bir çox digər mədəni irslər kimi, nəzərdən kənarda qalmışdır. Lakin bu gün muğamın dünya mədəniyyətində tanınması, həmçinin UNESCO tərəfindən qeyri-maddi irs kimi tanınması, onun qorunması və təbliği istiqamətində atılan addımlar, bu zəngin mədəni irsin gələcək nəsillərə ötürülməsi məqsədini güdür.

Bu gün muğam, sadəcə klassik sənətkarlar tərəfindən deyil, gənc nəslin ifaçıları tərəfindən də yaşadılır və bu, onun dinamik təbiətini, zamanla uyğunlaşmasını və yeniliklərə açıq olduğunu göstərir. Muğamın gələcəyi bu gün onun təbliği, qorunması və gənc ifaçılar tərəfindən mənimsənilməsi ilə təmin edilir. Beləliklə, muğam yalnız Azərbaycan xalqının milli kimliyinin təməlini qoyan bir sənət forması deyil, həm də dünya mədəniyyətinə mühüm bir töhfədir. Onun qorunması və gələcək nəsillərə ötürülməsi, həm də mədəni irsimizin zənginliyinin və dəyərinin tanınması deməkdir.

**Ədəbiyyat**

1.Nəcəfzadə A.İ., Məmmədəliyev V.M. Muğam. Ali musiqi məktəbləri üçün dərs vəsaiti. Bakı,"Ecoprint", 2017, 160 səh.

2.https://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_aprel2009/75942.htm

3.https://azerbaijan.az/related-information/39

4.https://unesco.az/az/articles/intangible_cultural_heritage/azerbaijani-mugham

| | |
|---|---|
| ***Zhumagali İBRAGİMOV.*** *KAZAK TÜRKÇESİNİN TÜRKİSTAN AĞZINDA EDATLAR* | 245 |
| ***Зульфия Ишкильдина, Светлана Косцова.*** *СЛОВООБРАЗОВАТЕЛЬНАЯ СТРУКТУРА СЛОВА В РУССКОМ И БАШКИРСКОМ ЯЗЫКАХ: СОПОСТАВИТЕЛЬНЫЙ АСПЕКТ* | 251 |
| ***Ahmedova Shaxnozaxon.*** *TOPONIMIKA FANI VA UNING RIVOJLANISH BOSQICHLARI* | 256 |
| ***Shirinova Yekaterina Turakulovna.*** *O‘ZBEK VA RUS TILLARI MUROJAAT VOSITALARI TADQIQIGA DOIR* | 261 |
| ***Aynur Cəfərova.*** *QARAQALPAQ DİLİNDƏ KONSONATLARIN ( SAMİTLƏRİN ) İŞLƏNMƏSİ* | 267 |
| **IV SHU‘BA. TURKIY XALQLARNING UMUMIY MADANIY MEROSI** | |
| ***Аминев Закирьян Галимьянович.*** *ОБ АРХАИЧЕСКИХ БАШКИРСКИХ ЭПОСАХ «УРАЛ БАТЫР» И «АКБУЗАТ»* | 275 |
| ***Турганбаев Нурмамат Орозович.*** *БАЙЫРКЫ ТАШ ЖАЗМА ЭСТЕЛИКТЕРДЕГИ ОРТОК СӨЗДӨР* | 278 |
| ***Адильбекова Эльмира Сейтимовна, Емре Гүлже.*** *TÜRK ANLATI GELENEĞİNDEKİ GÖLGE OYUNLARI: KARAGÖZ* | 286 |
| ***Turgay AKDURUŞ.*** *RENKLERİN SİYASİ VE TOPLUMSAL OLAYLARDA KULLANIMI* | 295 |
| ***Filiz GÜVEN, Zeynep AVCI.*** *İŞLEVSEL TİPTEN BELLEKSEL TEMSİLE: EMİR TİMUR’UN TÜRKİYE SAHASINDAKİ HALK ANLATILARINDA TİPOLOJİK DÖNÜŞÜMÜ* | 303 |
| ***Камалова Гульдар Рашитовна, Шакурова Шаура Рашитовна.*** *НАУЧНОЕ НАСЛЕДИЕ И ВКЛАД ВЫДАЮЩЕГОСЯ УЧЕНОГО-ТЮРКОЛОГА РАШИТА ШАКУРОВА В ГУМАНИТАРНУЮ НАУКУ* | 312 |
| ***Алиева Ляззат Бердуақасқызы, Ұлас Жанниет.*** *TÜRK MODERNLEŞMESİNİN TAŞIYICI GÜCÜ: HALK TİYATROSU* | 322 |
| ***Əhmədova Səbirə Şövqi qızı.*** *SƏMƏRQƏND ŞƏHƏRİNİN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ* | 328 |
| ***Fatimə Salmanova.*** *AZƏRBAYCAN MUĞAMI* | 334 |
| ***Sobirova E’zoza G‘ayrat qizi.*** *TURKIY XALQLARNING MILLIY QADRIYATLARINI TALQIN ETISH* | 339 |
| ***Ayan Əlizadə.*** *QƏRBİ AZƏRBAYCAN BÖLGƏSİNİN ZƏNGİN MƏTBƏXİ* | 341 |
| ***Həsənova Ülkər Fikrət.*** *TARİX DƏRSLƏRİNDƏ AKMEOLOJİ SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR* | 348 |
| ***Aysel Hüseyinova.*** *UŞA-QARABAĞIN MƏDƏNİ İNCİSİ* | 353 |
| ***Hüseynova Fatimə.*** *AZƏRBAYCAN VƏ ÖZBƏK XALÇALARI* | 359 |
| ***Zülfiqarova Aytən.*** *ÇÖVKƏN OYUNU* | 367 |
| ***Abbosova Mubina.*** *ZAHIRIDDIN MUHAMMAD BOBUR - TURKIY MADANIYAT TARG‘IBOTCHISI* | 371 |